# Ağca və Cubbulu

Sonu Zəfərlə bitən hekayə



Sevinc NURUQIZI

SEVİNC NURUQIZI

# Ağca və Cubbulu

Sonu Zəfərlə bitən hekayə



Təhsil

BAKI - 2023

I hissə

**Layihə rəhbəri və naşir**
Tural Axundov

**Buraxılışa məsul**
Bəhram Oruclu

**Koordinator**
Ruslan Ələkbərov

N 89 **Nuruqızı Sevinc**
**Ağca və Cubbulu.** Bakı, "Təhsil", 2023, 24 səh.

N $\frac{4803060201}{053}$ 2023

ISBN 978-9952-518-83-2

© "Təhsil", 2023



Süreyya sakit qız idi. Həyətdə uşaqlar atılıb-düşəndə, qaçdı-tutdu, ipatdı oynayanda, o evin bir küncünə çəkilib bapbalaca, yumşaq gəlinciyi Cubbulunu yedizdirir, saçlarını darayırdı. Cubbulu ilə söhbəti maraqlı olurdu. Hərdən onu danlayırdı:



– Cubbulu, bu gün özünü pis aparırsan. Dərslərini hazırlamamısan, evi zibilləmisən. Tənbəllik edirsən ha!

Sonra səsini bir az nazildib Cubbulunun da əvəzinə danışırdı:

– Bağışla, Sürəyya. Mən səhvimi düzəldərəm.

– Onda get əllərini yu, gəl otur yeməyini ye.

– Mən hələ acmamışam.





– Sən həmişə belə edirsən. Vaxtlı-vaxtında yemək yeməsən, böyüməzsən. Elə cubbulu qalarsan. Bütün uşaqlar məktəbə gedər, sən evdə oturarsan.

Çox vaxt evcik qururdu. Cubbulunu da evciyin ortasında oturdurdu. Hərdən başı elə qarışırdı ki, cəbhədə döyüşən atası belə yadından çıxırdı. Birdən nəyi isə xatırlayır, kədərlənir və deyirdi:



– Cubbulu, atam müharibədən qayıdanda, mənə də, sənə də güllü paltar alacaq. Özü deyib.

Bütün günü Süreyyanın yanında sevimli, xırda gəlinciyi Cubbuludan savayı bir ağ göyərçin də olurdı. Süreyya onu Ağca çağırırdı. Ağca Süreyyanın ən sevimli dostlarından idi. O, eyvana sarmaşmış tənəyə qonur, saatlarla Süreyya ilə Cubbuluya tamaşa edirdi. Hamıya elə gəlirdi ki, o Süreyyanın nə danışdığını da başa düşür.

Bəzən görürdün ki, Ağca uçub qızın evciyinin kənarına qonub. Süreyya onu suya, dənə qonaq edir, Ağca əvvəlcə utanır, sonra məmnuniyyətlə yeyirdi. Bəzən oyuna da qoşulur, dimdiyi ilə nəlbəkidəki sudan götürüb damcı-damcı tökür, Süreyya Cubbulunu çimizdirirdi.



Hərdənbir atılan güllə səsindən Ağca da, Sürəyya da səksənirdi. Cubbulu isə heç nəyi vecinə almırdı. Belə olanda onlar tələsik evciklərini yığışdırıb zirzəmiyə düşməli olurdular. Axı Sürəyyagilin kəndləri erməni kəndlərinin əhatəsində yerləşirdi.

Günlər bir-birini əvəz edirdi. Cəbhədən ağır xəbərlər gəlirdi. Sürəyya çoxdandı ki, atasından məktub almırdı. Bir gün səhər tezdən atışma başlandı. Düşmən Sürəyyagilin kəndinə hücuma keçmişdi. Gülləni





dolu kimi yağdırırdı. Silahsız camaat kəndi tərk edirdi. Sürəyyanın anası da qızını götürüb güc-bəla ilə bu güllə yağışından salamat çıxdı. Onlar başqa kənddə yaşayan xalasıgilə gəldilər. Bütün gecəni heç kəs yatmadı. Hamının gördüyü dəhşətdən yuxusu qaçmışdı. Sürəyya da yata bilmirdi. Axı necə yataydı?! O, Ağca ilə Cubbulunu düşmənlərin əlində qoyub gəlmişdi. Bunu heç zaman özünə bağışlamayacaqdı. Elə hey ağlayırdı. Xalasının verdiyi gəlinciyə yaxın durmur, "Cubbulu", – deyib gözünün yaşını axıdırdı.



Sürəyyagilin kəndini düşmən dağıtmışdı. Uçmuş evin eyvanındakı tənəyə qonmuş Ağca çox kədərli idi. O, toz-torpağın içinə düşmüş Cubbulu ilə dərdləşirdi:

– Tək qalmısan, Cubbulu?

– Hə Ağca. Çox darıxıram. Sən də darıxırsan?

– Əlbəttə. Lap ürəyim partlayır. Görəsən, Sürəyya qayıdıb bura gələr?

– Yox, Ağca, yox. Kənd düşmənlərlə doludur axı...

– Bəs onda neyləyək?





– Hələ bir soruşursan?! Sənin ki qanadların var! Mən uça bilsəydim, bir dəqiqə də burada qalmazdım. Gəl məni də al dimdiyinə, gedək Sürəyyanın yanına.

Ağca elə bil yuxudan ayıldı. Diksinən kimi oldu. Uçub Cubbulunun yanına qondu. Güc-bəla ilə çəkib toz-torpağın içindən çıxartdı. Dimdiyinə alıb qanadlandı. Yolu yaxşı tanıyırdı. Sürəyya bir dəfə onu özü ilə xalasıgilə aparmışdı.







Sürəyya çox kədərli idi. Dodaqlarını büzüb pəncərədən bayıra baxırdı. Səhərdən heç nə yeməmişdi. Gözü yol çəkirdi.

Birdən ayağa qalxdı. Gözlərini ovxaladı. Gördüyünün yuxu, yoxsa həqiqət olduğunu anlamaq istədi. Yox, yuxu deyildi. Bu ki, doğrudan da, Ağca idi, dimdiyindəki isə Cubbulu.





Sürəyya sevincindən atılıb düşdü. Dostlarını qucaqladı. İndi onlar yenə də üçü bir yerdə idilər. Üç dost öz sevimli kəndlərinə qayıdacaqları günü və Sürəyyanın əsgər atasının yolunu gözləyirdilər.



Güllə səsləri altında o evin xarabalıqları arasından çıxıb başqa kəndlərə, şəhərlərə yol aldı... Yuxularında "Cubbuluuuuu... Ağca..." – deyib qışqıranda, dəfələrlə öz səsinə yuxudan ayıldı... Duran kimi də paltar dolabının ən üst qatında gizlətdiyi qutunu açdı, içindəki yumşaq, çəhrayı saçlı, solğun geyimli gəlinciyi götürüb baxdı, gülümsədi və dedi: "Biz mütləq bir gün öz yurdumuza qayıdacağıq, Cubbulu..."

...Düz 28 il keçmişdi. Bir gün telefonuna zəng gəldi:

– Alo, salam.

– Salam.





– Sürəyya xanımdır?

– Bəli, eşidirəm sizi.

– Sürəyya xanım, sabah jurnalistlərdən ibarət nümayəndə heyəti düşməndən azad olunmuş Ağdam şəhərinə yollanacaq. Sizi də onların arasında görmək istəyirik... Alo, alo, Sürəyya xanım... Alo...



Sürəyya ağlayırdı… Sevincindən. Azadlığa qovuşmuş yurduna səfər edəcəkdi. Azadlıq uğrunda gedən 44 günlük savaşın hər anını həyəcan və qürurla izləmişdi. Hər yeni kənd, şəhər azad olunanda Sürəyya paltar dolabının ən hündür rəfində gizlətdiyi qutunu açır, Cubbulunu çıxardıb sinəsinə sıxır və deyirdi:

– Sevin, Cubbulu, Cəbrayıl işğaldan azad olundu…

– Sevin, Cubbulu, Füzuli işğaldan azad olundu…

– Sevin, Cubbulu, Zəngilan işğaldan azad olundu…

– Sevin, Cubbulu, Qubadlı azad olundu…

– Sevin, Cubbulu, Şuşa azad olundu…

– Ağdam azad olundu…

– Laçın…

– Kəlbəcər…

– Qarabağ bizimdir, Cubbulu… Qarabağ Azərbaycandır…

...Sürəyya sübh tezdən durmuşdu. Sözün doğrusu, sevindiyindən bütün gecəni gözünə yuxu getməmişdi. Uşaqları da erkən oyanmışdılar.

– Ana, bizi də aparacaqsan?

– Yox, oğlum. Sizi Ağdam abadlaşandan sonra aparacağam. Mənimlə, bilirsiniz, kim gedəcək?

Qızı irəli atıldı:

– Mən gedəcəm, hə, ana? Mən Şahindən böyüyəm. İkinci sinifdə oxuyuram. Mən...

– Yox, İradə. Siz evdə qalacaqsınız.

Sürəyya dolaba yaxınlaşdı. Oradakı qutunu götürüb açdı. Cubbulunu çıxartdı və dedi:

– Mənimlə Cubbulu gedəcək. Ağdamdan birlikdə çıxmışıq, birlikdə də dönəcəyik…



...Hamı həyəcanlıydı. Yolboyu dağılmış evlər, ucu-bucağı görünməyən xarabalıqlar, viran qalmış yurd yerləri... Süreyyanın bircə arzusu var idi. Gedib evlərini tapmaq, o evin uçuq-sökük divarları arasında Cubbuluyla xatirələrini bölüşmək... Avtobus dağılıb tökülmüş asfalt yolla ağır-ağır irəliləyir, insanlar gözlərini pəncərələrdən çəkmirdilər. Günəş buludların arxasında gizlənmişdi.

Qatı duman düşmənin törətdiyi vəhşilikdən utanırmış kimi şəhərin üzərinə tül pərdə çəkmişdi sanki... Arabir qulağına bələdçinin dedikləri çatırdı...

– Burada Ağdam Çörək muzeyi var idi. Bu muzey dünyada iki çörək muzeyindən biri idi... Onun eksponatları sırasında...

– Bu yerə İmarət deyərdilər. Xan qızı Natəvanın iqamətgahı idi. Çox təəssüf, bu qiymətli abidə və Xan qızı Natəvanın məzarı amansız vəhşiliklə dağıdılıb...

– Bu dəmir və daş qırıntılarının yerində isə Ağdamın məşhur Çay evi ucalırdı...

Süreyya gözlərini Çay evinin dağıntılarına zillədi... Sonra bir qədər də uzağa. Gözləri qapqara çölü qarış-qarış gəzdi... Avtobus irəlilədi... Və birdən... Birdən duman çəkildi, Süreyyanın gözünə işıqlı eyvan göründü... Üzüm tənəkləri ilə əhatə olunmuş pilləkanlar... Qızılgüllərə bürünmüş məhəccərlər... Xarabalıqlar arasında yamyaşıl zümrüd rəngli bir həyət parıldadı gözləri önündə...

– Evimiz... Baxın, bizim evimiz... Saxlayın. Xahiş edirəm... Bizim evimiz.

Qəfildən sanki bir leysan ələdi. Evin yaşıl, çəhrayı, məxməri rənglərini yudu, yudu... Yaşılı, çəhrayısı axan ev bozardı... Süreyyanın gözləri önündəcə divarlar aşdı, dam əyilib düşdü... Qəfil buludların arasından günəş boylandı... Günəşin sarı-qızılı telləri bu evin yıxılmış divarları arasında parladı... Haradansa bir dəstə ağ göyərçin qanadlandı. Göyərçinlər uçub evin daşlarının üstünə qondular...

Avtobus dayandı... Süreyya ağ göyərçinlərin qonduğu daşların arasında gəzir və sevinc göz yaşları içində sinəsinə sıxdığı gəlinciyə pıçıldayırdı:







– Bax, Cubbulu, bura bizim evimizdir... Sənin, mənim, Ağcanın... Bu şəhər yüzlərlə uşağın, gəlinciyin, göyərçinin Vətənidir... Biz qayıtdıq. Bilirsən, bu nə böyük səadətdir? Vətənə qovuşmaqdan gözəl nə ola bilər həyatda?! Heç nə... Heç nə, Cubbulu...

**AĞCA VƏ CUBBULU**
Bakı, "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC, 2023

**Art direktor**
Bəxtiyar Həbibullayev

**Texniki redaktor**
Məleykə Əsgərova

**Rəssamlar**
Törəxanım Ağabəyova
Nigar Mustafayeva

**Dizayner**
Firuzə İbrahimova

**Korrektor**
Günel Məmmədova

Çapa imzalanmışdır: 07.09.2023.
Format 60x90 1/8. Fiziki çap vərəqi 3,0.

**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin**
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ1052, F.Xoyski küç., (121a) 149
e-mail: tahsil_az@yahoo.com
Tel.: (+994 12) 567-81-28/29



9 789952 518832